# Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistanın "Əməkdaşlığın inkişafına töhfəyə görə" Dövlət ordeni ilə təltif olunub

Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova Türkmənistanın "Əməkdaşlığın inkişafına töhfəyə görə" Dövlət ordeni ilə təltif olunub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov bununla bağlı sərəncam imzalayıb.

Türkmənistan Milli Qenqeşi Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov spiker Sahibə Qafarova ilə görüşdə medalı Azərbaycan parlamentinin rəhbərinə təqdim edib.

Parlamentin spikeri Sahibə Qafarova bu yüksək mükafata layiq görüldüyü üçün minnətdarlığını bildirərək bu ordeni Azərbaycan-Türkmənistan dostluq və qardaşlıq münasibətlərinə göstərilən diqqət və hörmətin əlaməti kimi qiymətləndirib.

*"Azərbaycan"*